Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Mətbuat – Həyatın güzgüsü, həqiqətin carçısı

**3 May – Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Mətbuat – Həyatın güzgüsü, həqiqətin carçısı:** 3 May – Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. A. Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. – Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. - 30 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Özünü ifadə etmək, qəlbləri rahat qoymayan söz azadlığı hər yerdə dəbdə olan bir tələbə çevriləndə, nəhayət, fikir və düşüncə azadlığı sahəsində "partlayış" üçün siyasi və iqtisadi şərait yetişdi. İnsanların düşüncə tərzində və hərəkətində çevriliş baş verdi. Söz və öz azadlığı üçün meydan istədi. İlahi sözün çağrışları dünyanın bütün guşələrində milyonlarla insanı ayağa qaldırdı. Mətbuat bu azadlığı məmləkət-məmləkət, şəhər-şəhər, kənd-kənd, ev-ev daşıyan, insanlar arasında yayan qanadlı quşa çevrildi. Bundan sonra sözün gücü bütün silahdan daha qüdrətli oldu.

*Dünyada ilk qəzetlər*. Eramızdan əvvəl 59-cu ildə Yuli Sezar əmr verdi ki, senat iclasları, Romada baş verən digər hadisələr haqqında məlumat verən protokollar ictimai yerlərdən asılsın. Bu cür məlumatlar gipsdən hazırlanmış lövhələr üzərində qara şiriftlə yazılırdı. Bu prokotollar ilk qəzet nümunələri idi. Orta əsrlərin qapalı həyatında heç belə qəzetlər də yox idi. Yeni xəbərlər çox vaxt uzaq ölkələrə səyahət edən ticarətçilər tərəfindən yayılırdı. Orta əsrlərin sonlarından ölkədaxili və ölkəxarici əlaqələrin genişlənməsi qəzetə olan təlabatı artırır. Leyşikdə bank işçiləri əlyazma qəzet buraxmağa başladılar. Bu qəzetlər bir neçə nüsxədə olurdu. Hər bir oxucu qəzeti pulla aloa bilərdi. Venesiyada isə xəbərlər əlyazma vərəqlərində çıxırdı. Bu əlyazmalar meydanlarda asılırdı. Venesiya ilə Türkiyə arasında gedən müharibə zamanı isə bu əlyazmalar hər ay meydanda xüsusi adamlar tərəfindən ucadan oxunurdu. Dinləyicilərdən bir qazetta (İtaliyada xırda pul) alırdılar. Bir çox alimlər qəzet sözünün elə məhz buradan əmələ gəldiyini güman edirlər. Artıq XVI əsrin ikinci yarısından Almaniyada ixtisaslı qəzet üzü köçürənlər meydana gəlmişdi. Almaniyada qəzetlər maraqlananlara xüsusi ödənişlə göndərilirdi. Bu qəzetlərdə

nəinki  real hadisələr, həmçinin uydurulmuş hekayələr də verilirdi.

Artıq 1566-cı ildən Strasburq və Bazeldə həftəlik qəzetlər çıxmağa başladı. Ümumiyyətlə, qəzet çapı o dövrlərdə təhlükəli idi. Qəzetlər və qəzetçilər təqiblərə məruz qalıb cəzalandırılırlar. Məsələn, 1652-ci ildə IX Karl, Fransa kralı XIII Lüdovik və digərləri öz hakimiyyətləri dövründə qəzet çıxarmağı qadağan etmişdilər. Lakin bütün bu çətinliklərdən keçərək qəzetlər özlərinə yol açır. Hazırda isə qəzet dünyada ən çox yayılmış çap məhsuludur.

3 May Beynəlxalq Söz və Mətbuat Azadlığı Günüdür. F.Köçərli kitabxanası olaraq biz də bu günə həsr edilmiş bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki bölmədən ibarətdir. I bölmə bu günün yaranma tarixindən, II bölmə isə bu mövzu ilə bağlı keçiriləcək tədbirlərdən bəhs edir.

## I Bölmə: *Mətbuat – Cəhalət və zülmət dünyasını nurlandıran məşəl*

Əsrlər boyu insanlar doğru, ədalətli və ucadan söylənən cəsarətli sözə ciddi ehtiyac duyublar! Əsrlər boyu doğru, ədalətli sözü açıq və ucadan söyləmək çətin, qorxulu, bəzən isə qeyri-mümkün olub. Haqq və ədalət, xoş güzəran naminə yorulmadan çarpışan insanlar azad sözü – həqiqət saydıqları sözü, qorxu-hürküsüz, azad şəkildə deyə bilmək uğrunda da mübarizə aparıblar. Tarixin müəyyən mərhələlərində insanlar buna nail olsalar da, bir çox hallarda dillərindən bəlaya düşmüş, söylədikləri sözə və fikrə görə təqib edilmiş, müxtəlif formada cəzalandırılmış, bəzən isə zindanlara atılmışlar. Lakin bəşər övladı bu yoldan usanmamış, qorxub geriyə çəkilməmişdir. Sivilizasiya inkişaf etdikcə, cəmiyyətin və dövlətin idarə olunması təkmilləşdikcə artıq azad söz daşıyıcısı sayılan mətbuatın sərbəst və maneəsiz fəaliyyətinə də imkan yaradılmasına nail olunmuşdur. Buna qədər isə mətbuat qadağa və repressiyalardan keçmiş senzura nəzarətinə dözməli olmuş, bəzən isə "icazə verilən həddə" azadlıq və sərbəstlik göstərmişdir.

Azərbaycanın siyasi həyatında sözün azadlığı uğrunda mücadilələr müxtəlif tarixi mərhələlərdən adlayıb keçib. Mətbuat onun əsas silahı olan söz də, azad düşüncə də həqiqi azadlığa, sözün əsl mənasında, yalnız XX əsrin sonlarında qovuşdu. Azərbaycanın, xalqın azadlıq savaşında cəmiyyətin bütün zümrələrini səfərbər edib mübarizəyə qaldıran ilklər də elə söz fədailəri oldular. Xalqın tarixinin qərinələrindən gələn azadlıq və müstəqillik arzuları sözün qüdrəti ilə mücadilə bayrağına, ən kəskin silaha çevrildi. Dünənə qədər sözü azadlıqdan məhrum edən imperiya qulları ölkədən qovulandan, müstəqilliyin ilk qələbələri, azadlığın ilk müjdələri gələndən

sonra hakimiyyət başına keçənlər yenidən sözə həbs cəzası kəsmək istədilər. Haqqın carçıları sözün qüdrətilə azadlıq qazandıqları ölkədə döyüldülər, təhqir olundular, amma sözün məhbəsə məhkum olmasına imkan vermədilər. Mübarizə dayanmadı, sözün azadlıq savaşı bitmədi.

Azad ölkədə azad sözün qüdrətini və dəyərini bilən söz sahibi xalqın sözünü eşidib, tələbini qəbul edib hakimiyyətə gəldi. Gəldi ki, Azərbaycanı yenidən boyunduruğa salıb imperiya köləsinə çevirməsinlər. Gəldi ki, müstəqil Azərbaycanda demokratiyanın bərqərar olması üçün sözün azadlığına birdəfəlik hökm versin...

1993-cü ildə hakimiyyətə yenicə qayıtmış Heydər Əliyev yaxşı başa düşürdü ki, totalitar bir quruluşdan yenicə qopub demokratiyaya keçid edən bir ölkədə mətbuat hələ "dördüncü hakimiyyət" rolunu oynamağa hazır deyil. Çünki həm dövlət, həm də ayrı-ayrı qruplar tərəfindən idarə olunan mətbuat vasitəsilə kütləri manipulyasiya edir, gənc müstəqil ölkədə dövlət çevrilişlərini həyata keçirmək üçün ondan sui-istifadə edirdilər. Ona görə də gənc demokratik ölkədə mətbuatı azad bir müstəviyə çıxarmaq əsas vəzifələrdən biri kimi irəli sürüldü və Prezident Heydər Əliyev 1998-ci il avqustun 6-da özünün tarixi "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərmanı ilə Azərbaycan mediası üzərindən bütün dövlət tənzimləmə mexanizmlərini götürərək, ölkədə sözü, fikri və mətbuatı azad elan etdi.

Əgər zəmanəsinin siyasət əfsanəsi demokratiyanın ən vacib dəyərlərindən olan bu azadlıqların ayaqda durması və inkişafı üçün müvafiq qərarlar verməsə, lazımi tədbirlər görməsəydi, əslində bu azadlıq özü-özlüyündə 120 illik ənənələri olan Azərbaycan mətbuatını taleyin ixtiyarına buraxmaq və bəlkə də məhvə məhkum etmək olardı. Ölkənin

iqtisadi vəziyyətinin elə də yaxşı olmadığı bir vaxtda belə ümummilli lider Heydər Əliyevin səyləri nəticəsində medianın maddi-texniki bazasının inkişafı, möhkəmləndirilməsi, bir çox qəzetlərin “Azərbaycan” nəşriyyatına borclarının dondurulması və vaxtının uzadılması ilə bağlı fərmanlar, sərəncamlar imzalandı. Ölkədə müstəqil jurnalistikanın əsası qoyuldu, Azərbaycan mediasının demokratik ənənələri formalaşmağa başladı və azad, müstəqil jurnalistika cəmiyyətin aparıcı təsisatlarından birinə çevrildi. 1999-cu il dekabrın 7-də KİV haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Beləliklə, söz azadlığı, kütləvi informasiya azadlığı və senzuranın ləğvi Azərbaycan Konstitusiyasının müvafiq maddələri (47 və 50) ilə təmin olunmuş baza dəyərləri kimi, müstəqil respublikanın hüquqi standartlarının ayrılmaz tərkib hissəsinə çevrildi.

Azərbaycan milli mətbuatının 125 illiyində ümummilli lider Heydər Əliyev jurnalistlərlə görüşündə verdiyi qərarların məramını açıqlayaraq deyirdi: “Bizim ümumi məqsədimiz mətbuata daha da çox azadlıq verməkdir. Söz azadlığını daha da geniş təmin etmək və Azərbaycanda demokratiyanı bütün sahələrdə inkişaf etdirməkdən ibarətdir... Sözlər deyil, bu, mənim geniş siyasətimin bir hissəsidir”.

Zaman göstərdi ki, söz və mətbuat azadlığının bərqərar olması davamlı prosesdir və Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevdən sonra bu təkmilləşdirmə prosesinin estafetini uğurla davam etdirməyə başladı. Ümummilli liderin demokratik dövlətçilik strategiyasının prioritetlərindən biri kimi söz və mətbuat azadlığının, KİV-in inkişafına xüsusi qayğı ilə yanaşan İlham Əliyev bunun bir mühüm məqamının da iqtisadi sferadan keçdiyini bildiyi üçün onun ilk addımlarından biri məhz qəzetlərin “Azərbaycan” nəşriyyatına olan borclarının silinməsi barədə sərəncamı oldu. 2005-ci ildə “Əməkdar

jurnalist" adı bərpa olundu və bir qrup jurnalist bu fəxri ada layiq görüldü və bundan sonra jurnalistlərin təltif olunması ənənəyə çevrildi.

Azərbaycan mətbuatının və jurnalistikasının inkişafının davamlı xarakter alması məqsədilə dövlət başçısının tapşırığı ilə müstəqil mətbuatın inkişafının əsas istiqamətlərini göstərən Dövlət Konsepsiyası işlənib hazırlandı və Prezidentin 31 iyul 2008-ci il tarixli sərəncamı ilə təsdiq edildi.

3 May – Beynəlxalq Söz və Mətbuat Azadlığı Gününü unutmamaq və gənc nəslə, eləcə də şagirdlərə tanıtmaq məqsədilə kitabxanada bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm müsabiqəsi, oxucularla söhbət, səhnəciklər, icmal, kompozisiya və s. keçirilə bilər. Həmçinin bu mövzuyla bağlı fotostend, dünya mətbuatından və eləcə də Azərbaycanın ilk qəzet nümunələri, məqalə və kitabları sərgidə öz yerini alır. Müxtəlif ədiblərin, görkəmli şəxsiyyətlərə məxsus kəlam və materiallar da sərgidə nümayiş oluna bilər. Bütün bunlarla yanaşı sitatlar və şeir parçaları sərginin daha da dolğunlaşmasına səbəb olar. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "Azad söz, azad fikir, demokratik düşüncə", "Mətbuat – Həyatın güzgüsü, həqiqətin carçısı", "Mətbuat – Xalqın şanlı tarixi salnaməsi", "Mətbuat – Cəhalət və zülmət dünyasını nurlandıran məşəl", "Xalqa xidmətin ən yüksək zirvəsi", "Daha susa bilməzdim", "Tariximizdən səhifələr", "Hamımızın azadlığı, söz azadlığı", "İnformasiya inqilabı", "Dünya mediası", "Dünyanın söz və mətbuat azadlığı", "Müxtəlif əsrlər, eyni mövqe", "Maarifçiliyimizin sütunları", "Mətbuat xalqın ucadandanışanıdır", "Zülmətdə işıq", "Mətbuat demokratiyaya aparan ən kəsə yoldur" və s.

# Kitab sərgisi




































***Görkəmli şəxslərin Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü haqqında söylədikləri fikirlər:***

Biz demokratiya yolu ilə gedərək, söz azadlığını təmin edərək, mətbuat azadlığını təmin edərək bu yolda nöqsanları ardıcıl surətdə aradan qaldırmalıyıq və qaldıracağıq, mətbuata, söz azadlığına bütün imkanları yaradacağıq.

**Heydər Əliyev,**
*Azərbaycan xalqının ümummilli lideri*

Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir. Bu gen əsas vəzifə onun geniş imkanlarından milli dövlət quruculuğunda, demokratik dəyərlərin bərqərar edilməsində, sivil vətəndaş cəmiyyətinin formalaşmasında, islahatların həyata keçirilməsində, insanların mənəvi saflaşmasında səmərəli istifadə etməkdən ibarətdir. Mətbuat həyatın güzgüsü, həqiqətin carçısı olmalıdır, insanları yüksək ideyalar uğrunda mübarizəyə səsləməli və səfərbər etməlidir.

***

Mən öz işimdə mətbuata həmişə dəstək verməyə çalışıram. Bu gün də bu siyasəti aparıram. Hesab edirəm ki, qəbul edilmiş qərarlar bunun əyani sübutudur. Gələcək fəaliyyətimdə də çalışacağam ki, Azərbaycanda fəaliyyət göstərən mətbuat orqanlarına öz köməyimi, dəstəyimi verim. Mən əminəm ki, normal, hüquqi, demokratik dövlətin qurulması işinə KİV-in çox böyük əhəmiyyəti var və bu əhəmiyyət getdikcə artır.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Heç olmaz ki, doğru söz yerdə qalsın.

**H.B.Zərdabi,**
*Maarifçi*

Xalqımızın mənəviyyat, mədəniyyət pasportu olan kitablarımızın tarixi ilə hər birimiz fəxr edə bilərik.

**Sabir Rüstəmxanlı,**
*Xalq şairi*

## II Bölmə: *Keçiriləcək tədbirlər*

***Konfrans*** – Kitabxanada keçiriləcək ənənəvi tədbir forması kimi "Xalqa və dövlətə xidmət yolunda" adlı konfrans da məqsədyönlüdür. Bu məqsədlə kitabxanaçı bir neçə ali məktəblərlə əməkdaşlıq edir. O, ali məktəb tələbələrini və oxucuları kitabxanaya cəlb etməklə Azərbaycan və dünya mətbuatının yaranması, keçdiyi mərhələlər və hal-hazırkı vəziyyətlə tanış edir. Daha sonra kitabxanaçı sözü gedən tədbir üçün müəyyən olunmuş tarixdə oxucuları kitabxanaya dəvət edir. Konfransa müxtəli ixtisas və peşə sahibləri – tarixçilər, araşdırmacılar, yazarlar, jurnalist və KİV-in əməkdaşları və s. iştirak edə bilər. İştirakçılar növbə ilə bu tarixi hadisə haqqında oxucuları məlumatlandırır.

**I iştirakçı:** Kütləvi informasiya vasitələri (KİV) hər bir ölkədə ictimai fikri formalaşdıran bir institutdur. Bu baxımdan bəzən "media" adlandırılan KİV cəmiyyətdə böyük təsir gücünə malikdir. Təsadüfi deyil ki, medianı bir çox hallarda "dördüncü hakimiyyət" adlandırırlar. Lakin KİV o zaman dördüncü hakimiyyət funksiyasını yerinə yetirə bilir ki, o, azad və müstəqil olsun, siyasi və iqtisadi qurumların vassalına çevrilməsin.

Söz və mətbuat azadlığı bir çox hallarda cəmiyyətdə demokratiyanın meyarı, ölçüsü rolunu oynayır. Söz azadlığının olmadığı, mətbuatın senzuraya məruz qaldığı cəmiyyətdə insan hüquqları da tez-tez pozulur. Məhz bu səbəbdən bir çox mötəbər beynəlxalq qurumlar və demokratiyanın inkişafına xidmət edən

təsisatlar müxtəlif ölkələrdə söz və mətbuat azadlığını daim diqqət mərkəzində saxlayırlar.

1991-ci il mayın 3-də Namibiyanın paytaxtı Vindhukda regional seminara toplaşmış jurnalistlər azad və müstəqil informasiya vasitələrinə yardımçı olmaq məqsədilə bütün dünya hökumətlərinə mətbuat azadlığının və demokratikliyinin təmin edilməsinə yardımçı olmağa çağıran “Vindhuk Bəyannaməsi”ni qəbul etdilər. Bununla bağlı BMT Baş Məclisi 1993-cü ildə mayın 3-nü Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü kimi qeyd etməyi qərara almışdır. 1993-cü ildə BMT Baş Assambleyasının qərarı ilə təsis edilən əlamətdar gün Azərbaycanada da qeyd olunur.

**II iştirakçı:** Hər il mayın 3-ü Ümumdünya Mətbuat Azadlığı Günü kimi qeyd olunur. Bu gün münasibətilə keçirilən tədbirlərdə söz və mətbuat azadlığının əsas prinsipləri, ifadə azadlığının inkişaf perspektivləri müzakirə edilir, mətbuatın müstəqilliyinin təmin olunması, senzuranın ləğvi, insan hüquq və azadlıqlarının müdafiəsində mətbuatın rolu və digər məsələlər araşdırılır.

Azad sözün şərəfinə elan olunmuş ümumdünya mətbuat azadlığı günü “soyuq müharibə” dövrünün başa çatması ilə yer kürəsinin vahid informasiya məkanına çevrilməsinin məntiqi nəticəsi kimi ortaya çıxmışdır.

XX əsrin son onilliyində dünyada yaranmış siyasi reallıqları nəzərə alan müxtəlif ölkələrin jurnalistləri 1990-cı ilin fevralında Parisdə azad mətbuat prinsiplərinin maneəsiz yayılması və bəşəri bəlalara qarşı birgə mübarizənin zəruriliyini bildirmişlər. 1991-ci il mayın 3-də YUNESKO bu məramı ifadə etmiş sənədi – Namibiyanın Vinduk şəhərində qəbul olunmuş Bəyannaməni dəstəkləmiş və həmin günü Ümumdünya Mətbuat Azadlığı Günü kimi qeyd etmək təklifini Birləşmiş Millətlər Təşkilatına göndərmişdir.

**III iştirakçı:** Ümumdünya Mətbuat Azadlığı Günü Azərbaycanda da fəal dəstəklənir. Müstəqil Azərbaycan dövləti ölkədə insan hüquqlarının müdafiəsi, söz və mətbuat azadlığı kimi məsələlərə xüsusi önəm verir. Azərbaycan dövləti azad sözün cəmiyyət həyatında üstün yer tutması, maneəsiz yayılması üçün zəruri addımlar atmışdır.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra yeni tipli medianın formalaşması və möhkəmlənməsi üçün dəfələrlə ciddi tədbirlər həyata keçirilmiş, KİV-lər üzərindən dövlət nəzarətinin götürülməsi və mətbuatın inkşafı üçün əlverişli mühit yaradılmağa başlanmışdır.

Ulu öndər Heydər Əliyevin "Ölkədə söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanı ilə mətbuatda dövlət sirlərini mühafizə edən Baş idarənin ləğvindən və "Kütləvi informasiya vasitələri haqqında" Qanunun qəbulundan sonra ölkə mətbuatının inkişafında yeni dövr başlanmışdır.

Qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarının ləğv edilməsi, qəzet redaksiyalarının maddi-texniki bazasının gücləndirilməsi, jurnalistlərin dövlətin ali mükafatları ilə, o cümlədən orden və medallarla təltif olunmaları dahi öndərin mətbuatın inkişafına göstərdiyi diqqətin tərkib hissəsi olmuşdur. 2003-cü ilin martın 15-də Azərbaycan Jurnalistlərinin I Qurultayında Mətbuat Şurasının yaradılması bu sahədə pərakəndəliyin aradan qaldırılmasına müsbət təsir göstərmişdir. Jurnalistlərin Peşə Kodeksinin yaradılması isə media qurumları arasında problemlərin həllində mühüm rol oynamışdır.

**IV iştirakçı:** Ümummilli liderin ölkə mətbuatına göstərdiyi qayğı Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. 2005-ci il mayın 31-də Milli mətbuatımızın 130 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Prezidentinin

Sərəncamı bu sahəyə olan diqqət və qayğının bariz nümunəsi olmuşdur.

Dövlətimizin başçısının 2008-ci il 31 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" mətbuat-dövlət münasibətlərinin tənzimlənməsi istiqamətlərini və dövlətin bu sahədəki siyasətini tam mənada ifadə edən baza rolunu oynayır. Bu sənəd əsasında 2009-cu il aprelin 3-də "Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" dövlətimizin başçısının Fərmanı bu istiqamətdə atılmış mütərəqqi addım olmuşdur.

Ölkə mətbuatının daha da inkişafını təmin etmək üçün Milli Məclis "Kütləvi informasiya vasitələri haqqında", "Məlumat azadlığı haqqında", "Əməliyyat axtarış fəaliyyəti haqqında", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" və "İnformasiya əldə etmək azadlığı haqqında" qanunlara bir sıra mütərəqqi dəyişikliklər etmişdir.

Ölkə rəhbərliyinin milli mətbuatımıza göstərdiyi diqqət və qayğı Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AZƏRTAC-ın) də fəaliyyətinə öz əhəmiyyətli təsirini göstərmişdir.

Prezident İlham Əliyevin AZƏRTAC-ın əməkdaşlarının yüksək fəxri adlar, medallarla təltif olunması barədə 2010-cu il fevralın 26-da imzaladığı Sərəncamlar, eləcə də AZƏRTAC-ın 90 illik yubileyinin geniş qeyd olunması bu diqqət və qayğının bariz nümunəsidir. Dövlətimizin başçısının 2010-cu il aprelin 22-də imzaladığı "Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AZƏRTAC-ın) Fəaliyyətinin Təkmilləşdirilməsi haqqında" Sərəncamı Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində mətbuatın fəaliyyətinin yüksək qiymətləndirilməsinə nümunədir.

Hazırda respublikada çoxlu sayda müxtəlif qəzet və jurnallar nəşr olunur, internet qəzetçilik inkişaf edir. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirmişdir. Bütün dünyada gedən qloballaşma prosesi mətbuatdan da yan keçməmişdir. Bu gün yüzlərlə jurnalist beynəlxalq təşkilatların dəstəyi ilə təşkil olunan peşə artımı kurslarında treninq və təkmilləşmə kursları keçirlər. Peşəkar jurnalistlər ölkədə və onun xaricində baş verən ictimai, siyasi, mədəni hadisələri tam obyektiv işıqlandırır, onları təhlil edir və oxucuya qərəzsiz, düzgün çatdırırlar. Belə jurnalistlər ictimai-siyasi, iqtisadi, mədəni, elm və texnika sahələrindəki nöqsanları qərəzsiz mövqedən açır, göstərir və onların həlli istiqamətində araşdırmalar aparırlar.

**V iştirakçı:** Ümumdünya Mətbuat Azadlığı Gününün geniş qeyd edilməsi artıq ölkəmizdə də ənənə halını almışdır. Bu gün münasibətilə bir sıra tədbirlər keçirilir, dövlət qurumlarının və KİV-lərin nümayəndələri bu sahədə mövcud durumu və ölkə mətbuatının inkişafı yollarını müzakirə edirlər.

Hər bir ölkənin mədəniyyətinin inkişafı ədəbiyyatın inkişafı ilə bağlı olduğu kimi, onun siyasi vəziyyəti də mətbuat azadlığı ilə bağlıdır. O xalq xoşbəxt və azaddır ki, onun mətbuatı azad və müstəqil olsun.

Mühüm milli qüvvələrdən biri olan olan mətbuat, cəmiyyət həyatında çox böyük rola və əhəmiyyətə sahib olmaqla bərabər, eyni zamanda dördüncü hakimiyyət hesab olunur. Buna görə də, kütləvi informasiya vasitələri xalqın milli nümayəndəliyini öhdəsinə götürən, onun görüşlərini ifadə edib yayan ictimai nəzarətçidir. Hökumətin fəaliyyətini bir an belə gözdən qoymayan, ciddi əsaslı tənqidə rəvac verən, nöqsanları açıb göstərən də məhz mətbuat hesab olunur. Buna görə də, müstəqil dövlətlər yerli mətbuata xüsusi önəm verir, onun heç bir

qüvvədən aslı olmadan, yalnız demokratik dəyərlərə xidmət etməsinə diqqət yetirir. Kütləvi informasiya vasitələri elmi, siyasi və bəşəri informasiyanı çoxaldır ki, bu da insanların zehninin işıqlanmasına səbəb olur.

**VI iştirakçı:** Söz və mətbuat azadlığı dedikdə, zənnimcə, ilk növbədə məsuliyyət hissi əsas amil kimi nəzərə alınmalıdır. Çünki söz azadlığı, mətbuat azadlığı o demək deyil ki, hər kəs istədiyini yaza, istədiyi fikri bildirə bilər. Təbii ki, təkcə mətbuat orqanları, KİV nümayəndələri yox, hər birimiz azərbaycanlı olaraq, məsuliyyət hissini unutmamalı və bu hissdən çıxış edərək, hərəkət etməliyik. Ona görə də, bugünkü jurnalist təşkilatları, müxtəlif dövlətlər söz azadlığı ilə bərabər, eyni zamanda reket jurnalistika ilə də mübarizə aparırlar. Bunun üçün dünya dövlətlərinin, o cümlədən Azərbaycanın da qatıldığı tədbirlər keçirilir, ölkədə şəffaf, müstəqil, eyni zamanda xalqdan başqa heç kimə xidmət etməyən mətbuatın inkişafı üçün mübarizələr aparılır.

Müasir dünyada elmi-texnikanın inkişafı sürətli qloballaşmaya və dünya xalqları arasında əlaqələrin genişlənməsinə kömək etməklə yanaşı, həm də yeni anlayışlar və informasiyalar yaradır. Yeni informasiyaların alınması və müasir terminologiyanın mənimsənilməsində bir çox dünya ölkələri ilə yanaşı, Azərbaycanda da mühüm işlər görülməkdədir.

*Tədbirin sonunda oxucular mövzu ilə əlaqədar şeirlər deməyə başlayırlar.*

***Oxucularla söhbət*** – Kitabxanada Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü ilə əlaqədar qələmə alınan, nəşr olunan kitablardan ibarət sərgi təşkil olunur. Kitabxanaçı sərginin ətrafında **“İlk Azərbaycan kitabı”** adlı *oxucularla söhbət* keçirir. Söhbət zamanı kitablar haqqında məlumat verir, kitabların annotasiyaları oxuculara ətraflı çatdırılır.

***Kitabxanaçı:*** Sərgidə yer alan kitablardan biri *"İlk Azərbaycan kitabı"* adlanır. Oxuculara təqdim olunan bu kitab Azərbaycanda ilk çap olunan kitabların yaranma tarixindən bəhs edir.

Hər bir millətin dininin, dövlətinin, ədəbiyyatının tarixi olduğu kimi kitabın da tarixi var. Azərbaycanlılar üçün kitab, yazı anlayışları az qala xalqın özü qədər qədimdir və and yeri anlamlarını da əhatə edən çox geniş bir məzmun daşıyıb. Kitab xalqın gözündə uludur, ilahinin yerə göndərdiyi nemətdir. Çörəklə yanaşı tutulur və tanrı ilə birgə kitaba da and içilir: "Tanrı haqqı, kitab haqqı!"

Nə vaxt, harada yaranıb, azərbaycanlıların ilk kitabı? İndi Ermənistan tərəfindən işğal olunmuş Kəlbəcərin Yazılı daşlarındamı, Gəmiqayadamı, yoxsa Qobustan qayalarındamı? Hər halda bu qayalar da Azərbaycanın ilk kitablarındandır və ən azı on min il əvvəlin sirrini-sözünü yaradırlar. Babalarımızın bizə, gələcəyə yazdıqları bu daş məktubları hələ oxuya bilməmişik. Sonralar Azərbaycanda çox kitablar yaranıb; bu kitablar daşla, ağacla, dəmirlə, mıxla, nəhayət, ləléklə və metal qələmlərlə yazılıb.

Dünyanın ən qədim yazı və əlifba üsullarının birinin adının türkcə olması babalarımızın yazı və kitab sənətinə verdiyi böyük önəmin göstəricisidir. Dünyanın "mixi yazı" kimi qəbul etdiyi əlifba əslində türklərin icadıdır. Qədim Şumerdə gil üstündə mıxla yazıldığına görə belə adlandırılıb. Və sonralar ərəblərin dilinə bu söz "mismari yazı" kimi tərcümə olunub.

Əgər Azərbaycan kitabı deyəndə, əlyazmalarını da nəzərə alsaq, onda minillərin tarixini vərəqləməliyik. Azərbaycan əlyazma kitabı bütün mədəniyyət yolumuzun yoldaşı olub. Lakin bu bukletdə əlyazmadan yox, sənaye, mətbəə üsulu ilə hazırlanmış ilk Azərbaycan çap kitabından söhbət gedir. İlk nəşrimizin də çox maraqlı və qədim bir tarixi var.

Azərbaycanlı müəllifin mətbəə üsulu ilə çap olunmuş ilk kitabının ünvanı Romadır və həmin tarixdən 400 il keçir. Azərbaycan ərazisində isə ilk mətbəə təqribən 200 il əvvəl Təbrizdə yaradılıb və çap etdiyi ilk kitab da Füzulinin "Leyli və Məcnun" udur. Hər iki hadisə Azərbaycan kitab mədəniyyətinin dönüş nöqtələridir.

Xalqımızın mənəviyyat, mədəniyyət pasportu olan kitablarımızın tarixi ilə hər birimiz fəxr edə bilərik. Dahi Nizami Gəncəvinin "tükənməz mənəvi qida" adlandırdığı kitab bəşəriyyətlə birlikdə inkişaf edib, zəngin və maraqlı tarixi yol keçmişdir. Klassiklərin qiymətli dəfinə hesab etdiyi kitabın meydana çıxması üçün yazı materialları əsas meyar olmuşdur.

Azərbaycanda yazı və əlifba bir neçə tarixi mərhələ keçmişdir. Hələ qədimdən respublikamızın ərazisində mixi yazısından istifadə olunmuşdur. Türk xalqlarının, o cümlədən azərbaycanlılarının əcdadı olan qədim türklər hələ eramızın ilk əsrlərində Orxon-Yenisey, qədim uyğur və s. əlifbalardan istifadə etmişlər. V əsrin birinci rübündə alban əlifbası meydana gəlmişdir. XV əsrə aid bir dərslikdə yunan, latın, ərəb, gürcü əlifbaları ilə yanaşı, 52 hərfdən ibarət alban əlifbası da verilmişdir.

X-XI əsrlərdə artıq "Dədə Qorqud" dastanı yazıya köçürülmüşdür. XV-XVI əsrlərdə "Kitabi Dədə Qorqud" adı ilə yenidən qələmə alınmış bu dastan hazırda Drezden və Vatikan kitabxanalarında mühafizə olunur. Dünyanın ayrı-ayrı kitab xəzinələrində mühafizə olunan Azərbaycan əlyazma kitablarından ən qədimləri XIII əsrə aiddir...

Sərgidə yer alan digər kitab *"Azərbaycan mətbuatı tarixi"* kitabıdır. Çağdaş Azərbaycan mətbuatı möhkəm tarixi ənənələrə söykənərək bu gün bütün çətinliklə birgə özünün növbəti inkişaf mərhələsini yaşayır. Akif Aşırlının qələmə aldığı "Azərbaycan mətbuatı tarixi" kitabı müasir jurnalistikamızın

bünövrədaşı olan tarixi mətbuatımızın tədqiqinə həsr edilib. Sonuncu dəfə "Azərbaycan mətbuatı tarixi" kitabının 1974-cü ildə çap olunması nəzərə alınsa, müəllifin qarşılaşdığı çətinliklər aydın görünər. Milli mətbu irsimiz barədə yazılan axtarışları hesabına ərsəyə gələn "Azərbaycan mətbuatı tarixi" (1875-1920) kitabı problemin həllinə cəhd kimi dəyərləndirməlidir. Müəllif kitabın qüsurlarından xali olduğu iddiasında deyil və bu yöndə tədqiqatlarını aparmaq fikrindədir.

Sərgidə yer alan digər kitab isə "Heydər Əliyev və mətbuat" adlı IV cildli kitabıdır. Dördcildlik kitabda Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin çoxcəhətli ictimai-siyasi fəaliyyətinin bir cəhəti 1990-2003-cü illər ərzində ölkə daxilində, eləcə də rəsmi səfərlər zamanı xaricdə kütləvi informasiya vasitələri nümayəndələri ilə görüşləri öz əksini tapmışdır.

Dünya səviyyəli siyasi xadim və müdrik dövlət başçısı Heydər Əliyevin mətbuatla sıx əlaqəsini işıqlandıran materiallar imtimai-siyasi fikir tariximizlə maraqlanan oxucular, politoloqlar və siyasətşünaslar üçün fundamental tədqiqat mənbəyidir.

***İcmal*** – Kitabxanada Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü-nə həsr edilmiş tədbirlərdən biri də *"Mətbuat – Cəhalət və zülmət dünyasını nurlandıran məşəl"* adlı mövzu ilə bağlı icmaldır. Kitabxanaçı bunun üçün ilk olaraq bugünkü gün haqqında dəyərli fikirlər söyləyir.

***Kitabxanaçı:*** Klassiklərimiz mətbuatı insanların ruhunu təzələyən səhər mehi, cəmiyyətin hərəkətverici qüvvələrindən biri, dövrün aynası, xalqın görən gözü, eşidən qulağı və s. epitetlərlə təqdim və təqdir etmişlər. Doğrudan da ümummilli mədəniyyətin tərkib hissəsi olan mətbuat mənsub olduğu xalqın həyata baxışlarını, məişət və yaşayış tərzini, ictimai-mədəni proseslərə sosial-psixoloji münasibətini özündə əks etdirən,

eyni zamanda onun hər hansı məsələyə münasibətinin formalaşmasında əhəmiyyətli rol oynayan bir vasitədir. Ona görə mətbuatın elmi-nəzəri, metodiki və təcrübi baxımdan dərki və inkişaf mərhələlərinin şəhri də diqqət mərkəzində olmuş, bu barədə şeir, məqalə və kitablar yazılmış, bir-birindən maraqlı fikirlər söylənmişdir. İş elə gətirmişdir ki, mətbuata, onun əhəmiyyətinə dair ilk qiymət verib fikir söyləyən qələm əhli də elə şair, yazıçı və publisistlər olmuşlar. Milli mətbuat tariximizin keçdiyi yolu araşdıran, onun ümumi mənzərəsini canlandırmağa çalışmaq təşəbbüsü ilə qələmə sarılanlar da mətbuat və ədəbiyyat xadimləri olmuşlar. F.Köçərli, Ə.Ağayev, M.Şaxtaxtlı, M.B.Məhəmmədzadə və başqaları bu qəbildəndir.

Azərbaycan mətbuatının keçdiyi tarixi yol yaş etibarilə o qədər də böyük deyil. Lakin bu yolun şərəf, ləyaqət yolu olduğu heç kimdə şübhə doğurmur. Mətbuatımızın keçdiyi tarixi yol xalqımızın qürur mənbəyidir. Milli inqilabın yeni mərhələsini təmsil edən "Əkinçi" qəzetnin başlanğıcını qoyduğu bu yol neçə-neçə mətbu və ədəbi məktəbin formalaşma prosesinə təkan verdi, xalqın kamilləşməsinə, maariflənməsinə, milli-azadlıq hərəkatının güclənməsinə birbaşa təsir göstərdi. Tarixin müxtəlif ictimai-siyasi mərhələlərində bərkiyib formalaşmış Azərbaycan mətbuatı xalqa, cəmiyyətə, insana xidmət borcunu şərəflə yerinə yetirdi. Mətbuat demokratiyaya aparan ən kəsə yoldur. Demokratik dövlət quruculuğu prosesini əsas prioritet qəbul edən Azərbaycan mətbuatın bu xarakterini, bu xidmətini yüksək qiymətləndirir və jurnalistikanın, mətbuat azadlığının inkişafına önəm verir.

***Dəyirmi masa*** – Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü ilə əlaqədar olaraq, *"Cəhalətə işıq tutan dahi – Həsən bəy Zərdabi"* adlı ***"dəyirmi masa"*** təşkil etmək olar. Dəyirmi masa zamanı tələbələr beynəlxalq aləmdə və eləcə də Azərbaycanda mətbuatın vacibliyindən və öhdəliklərindən bəhs edir. Bütün

bunlarla yanaşı, Azərbaycan mətbuatının banisi, böyük insan, maarifçi şəxsiyyət Həsən bəy Zərdabi yaradıcılığı da çoxşaxəli təhlil edilir.

***Kitabxanaçı:*** Azərbaycan xalqının mədəniyyət tarixinə görkəmli şəxsiyyət kimi daxil olan Həsən bəy Zərdabi 40 ildən artıq bir dövr ərzində öz xalqının səadəti və tərəqqisi uğrunda yorulmaq bilmədən əzmlə mübarizə aparmışdır. Həyatının mənasını xalqın səadəti uğrunda mübarizədə görən Zərdabi zəngin və çoxcəhətli həyat yolu keçmişdir. Bu böyük mübariz elm fədaisi öz qarşısında Azərbaycan xalqını cəhalət və avamlıqdan xilas etmək kimi nəcib bir məqsəd qoymuşdu və bunun üçün maarifi əsas vasitə seçmişdi. Mövhumat və orta əsr geriliyinin hökm sürdüyü, xalqımızın cəhalət və zülmət içərisində boğulduğu bir dövrdə Zərdabi ilk maarif məşəlini yandıranlardan biri olmuş və ömrünün axırınadək bu məşəli əlindən yerə qoymamışdır. “Maarifdən, elmdən məhrum bir xalq işıqdan məhrumdur” – deyən Zərdabinin bütün həyatı xalqın maariflənməsi işi ilə bağlı olmuşdur. O, haqlı olaraq Azərbaycanda ana dilində təhsilin, qadın təhsilinin Azərbaycan teatrı və mətbuatının banisi hesab edilir. Həsən bəy Zərdabinin 1875-1877-ci illərdə olmazın çətinliklər bahasına nəşr etdiyi “Əkinçi” qəzetinin xalqımızın həyatında oynadığı bu rolu, keçən əsrin 50-60-cı illərində “Kolokol” qəzeti və “Sovremennik” məcmuəsinin rus həyatında oynadığı mütərəqqi rolla müqayisə etmək olar. “Əkinçi” qəzetinin nəşri xalqımızın mədəni tərəqqisində irəliyə doğru atılan mühüm bir addım idi. Həsən bəy Zərdabi qəzetin vəzifələrindən bəhs edərək, onun ilk nömrələrində yazmışdır: “Hər bir vilayətin qəzeti gərək o vilayətin aynası olsun. Yəni o vilayətin sakinləri elədiyi işlər, onlara lazım olan şeylər, xülasə onların hər bir dərdi və xahişi o qəzetdə çap olunsun ki, o qəzetə baxan, xalqı aynada görən kimi görsün.” “Əkinçi” qəzeti öz nəşri illərində bu vəzifələri

layiqincə yerinə yetirmişdir. Az bir vaxtda o, Azərbaycanda qabaqcıl ideyaların carçısına çevrilmişdir. “Əkinçi” qəzeti ətrafına toplanmış mütərəqqi ziyalılar – maarifpərvər şair Seyid Əzim Şirvani, dramaturq Nəcəf Bəy Vəzirov, Əsgər ağa Görani, Əhsənül-Qəvvaid və başqaları mürtəce qüvvələrə qarşı cəhalət və zülmətə qarşı, avamlıq, gerilik, mühafizəkarlığa qarşı kəskin mübarizə aparmışlar. “Əkinçi” qəzeti yerli feodalların təhriki və müstəmləkəçi çar məmurlarının təkidi ilə bağlandığından sonra da Həsən bəy Zərdabi öz qızğın maarifçilik fəaliyyətini davam etdirmişdir. O, “Ziya”, (“Ziyayi-Qafqaz”), Tiflisdə çıxan “Qafqaz”, “Novoye obozreniye”, Bakıda nəşr olunan “Kaspi” və başqa qəzetlərə müntəzəm surətdə məqalələr yazaraq, bir tərəfdən kəndliləri “zəli kimi soran” qolçomaqları, kəndxudaları, kəndlilərin avamlığından istifadə edib onları aldadan və amansız surətdə istismar edən mollaları, müridləri, şeyxləri, rüşvətxor çar məmurlarını və başqa cəhalətpərəstləri özünə məxsus bir cəsarətlə ifşa etmiş, digər tərəfdən kəndlilərə öz hüquqlarını başa düşməyə, hər cür zülmə müti qul kimi dözməməyə, istismarçılığa qarşı müqavimət göstərməyə çağırmışdır.

1875-ci il iyul ayının 22-də “Əkinçi”nin 1-ci sayı çap olunduqdan sonra H.Zərdabi mətbuatımızın banisi kimi tarixə düşdü...“Əkinçi”!.. Bu sözü həyəcansız, ürək çırpıntısı keçirmədən tələffüz etmək qeyri-mümkündür. Bu sözdə hər bir Azərbaycan vətəndaşı üçün nə qədər böyük müqəddəslik və doğmalıq var!.. “Əkinçi” müstəqil Azərbaycanın, onun dilinin, xalq nəğmələrinin poeziyanın, ədəbiyyatının, tarixinin ən gözəl emblemidir. O bütün Azərbaycan xalqının əksidir, təyinatıdır, azad əməyə sevgisidir, enerjisidir, ideyaları və ideyallarıdır!.. “Əkinçi” və Həsən bəy Zərdabi xalq yaddaşında və tarixdə elə çulğaşıb ki, onları bir-birindən ayırmaq mümkün deyil. Onlar birlikdə və ayrılmaz formada Azərbaycanın və bütün Qafqazın

mədəniyyətinin və maarifinin, iqtisadiyyatının inkişafı tarixində, siyasi həyatında şərəfli yerlərdən birini tutur. H.Zərdabi özünəməxsus enerji və cəsarətlə doğma dili müdafiə etdi. “Əkinçi”nin təkcə forması, dili deyil, məzmunu da diqqəti özünə çəkirdi. Qəzet Rusiya, Qafqaz və xarici ölkələrlə bağlı bütün xarici və daxili məsələlərə öz səhifəsində yer verirdi...

“Əkinçi” nin məram və məqsədləri qəzetdə bu cür təqdim olunurdu:

- “Əkinçi” – tərbiyəçi olub xalqın xoşbəxtliyi haqqında düşünür, xalqın maariflənməsinə çalışır;
- “Əkinçi” – bələdçi olub dünyəvi elmlərin öyrənilməsinə və insanları işığa, yaxşılığa səsləyir;
- “Əkinçi” – bir ayna kimi bütün əyrilikləri göstərir, təmizliyin, səadətin, xoşbəxtliyin yoluna işıq tutur;
- “Əkinçi” – bir həkim kimi insanları acı dərmanlarla nadanlıq xəstəliyindən müalicə edir ki, bizdən sonra gələnlər nadanlıq mərəzinə tutulmasınlar.

Bəli, “Əkinçi” qəzeti fəaliyyət göstərdiyi (1875-1877) illərdə özünün müqəddəs amalına – xalqın maariflənməsinə ləyaqətlə xidmət etdi. O, tezliklə xalq maarifi və mədəniyyətinin, ana dili məktəblərinin böyük carçısı oldu. Lakin bu sevincli günlər uzun sürmədi. Bu işdə də erməni xəyanəti öz işini gördü. “Əkinçi” nin mürəttibi Minasovun donosları nəticəsində “Əkinçi” qapandı. “Əkinçi” bağlansa da, onun əkdiyi maarif, elm və mədəniyyət toxumları tezliklə öz bəhrələrini verdi: yeni-yeni məktəblər açıldı, qəzetlər yarandı… “Əkinçi” nin davamçısı türk dilində ikinci qəzet olan “Tərcüman” (1883-1919) Həsən bəyin dostu böyük türkçü İsmayıl bəy Qaspıralının redaktorluğu ilə nəşrə başladı. Bu qəzetin nəşrini Həsən bəy türkçülüyün bayramı kimi qarşıladı...

***Rəy sorğusu –*** Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü ilə əlaqədar olaraq, kitabxanalarda keçirilən tədbirlərdən biri də *"Mətbuat xalqın ucadandanışanıdır"* adlı **rəy sorğusudur**. Bu mövzu haqda kifayət qədər bilgi əldə etmiş şagirdlər kitabxanaya gəlib tədbirdə iştirak edirlər. Əvvəlcə kitabxanaçı qonaqlar və iştirakçıları salamladıqdan sonra bu şanlı tarix haqqında qısa və dəyərli məlumatlar verir. Məlumatdan sonra suallar yazılı və test şəklində iştirakçılara təqdim olunur.

***Kitabxanaçı:*** Dostlar, indi siz çoxlu qəzetlər görür və oxuyursunuz. Onlar gözəl formada, nəfis tərtibatda hətta bəziləri rəngli çap edilirlər. Bəs ilk qəzetlər necə olub. Əlyazma formasında olan qəzetlər lövhə şəklində olduğundan bu qəzetlər ictimai yerlərdə asılırdı. Sonralar papirus və perqament yarandıqdan sonra bir nəfər mətni ucadan diktə edir, qalanlar isə sürətlə yazırdı. "Qəzet" sözü indiki mənada fransız naşiri Renodonun 1631-ci ildə Paridə "La Qazetta" adlı dövri nəşri buraxdığı vaxtdan geniş yayılmağa başladı.

Rusiyada ilk qəzet 1702-ci ildə I Pyotrun fərmanı ilə çap olunmağa başlayan "Vedemosti" olub. Azərbaycanda isə XIX əsrin I yarısında bəzi qəzetlər çıxsa da, Azərbaycan dövri mətbuatının əsası 1875-ci ilin iyunun 22-də nəşr olunmağa başlayan "Əkinçi" qəzeti ilə qoyulub.

*Kitabxanaçının məlumatından sonra suallar məktəblilərə təqdim olunur.*

**Suallar:** 1. Beynəlxalq Söz və Mətbuat Azadlığı Gününün tarixini qeyd edin.

a. 20 Yanvar
b. 28 May
c. 3 May

2. F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təsis etdiyi jurnal aşağıdakılardan hansıdır?

a. Göyərçin
b. Qaranquş
c. Göy qurşağı

3 İlk qəzet harada və nə vaxt çap olunmağa başlayıb?
a. İlk qəzet Rusiyada 1702-ci ildə I Pyotrun fərmanı ilə çap olunmağa başlayan “Vedemosti” olub.
b. İlk qəzet Azərbaycanda ilk dəfə 1875 -ci il 22 iyunda nəşr olunan “Əkinçi” qəzetidir.
c. İlk dəfə jurnal nəşr olunmuşdur.

4. Sevərək oxuduğunuz qəzet və jurnallardan bir neçəsinin adlarını sadalayın.

5. Qəzet təsisçiləri hansı peşə sahibidir?
a. Müəllim
b. Jurnalist
c. Kitabxanaçı

6. Azərbaycanda ilk qəzet haqında məlumat verin.

7. Dahi Nizami Gəncəvi “tükənməz mənəvi qida” adlandırarkən nəyi nəzərdə tuturdu?
a. Kitab
b. Günəş
c. məktəb çantası

*Cavablar:* 1. c; 2. c; 3. a, 4. Göy qurşağı, Göyərçin, Svalan, “Qaranquş, Bala dili və s. 5. b, 6. ...; 7.a.

*Rəy sorğusunun sonunda daha çox suala cavab verən məktəblilər mükafatlandırılır.*

## Ədəbiyyat siyahısı

### *Kitablar*

**Aşırlı A.** Azərbaycan mətbuat tarixi.II hissə : 1920-1990. - Bakı : Elm və Təhsil, 2010. - 227 s. : foto.

**Heydər Əliyev və** mətbuat : 4 cilddə. I cild : Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar : Yanvar, 1990-iyul, 1996. - Bakı : Nurlar, 2003. - 640 s. : rəngli foto, portr.

**Heydər Əliyev və** mətbuat : 4 cilddə. II cild : Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar : iyul, 1996-iyul, 1998. - Bakı : Nurlar, 2003. - 640 s. : rəngli foto.

**Heydər Əliyev və** mətbuat : 4 cilddə. III cild : Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar : iyul, 1998-sentyabr, 2000. - Bakı : Nurlar, 2003. - 640 s. : rəngli foto, portr.

**Heydər Əliyev və** mətbuat : 4 cilddə. IV cild : Müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar : Noyabr, 2002-Mart, 2003. - Bakı : Nurlar, 2003. - 640 s. : rəngli foto, portr.

**Jurnalist olmaq istəyirsənsə...** - Bakı : Nurlar, 2004. - 200 s

**Mirəhmədov Ə.** Azərbaycan jurnalistləri və naşirləri : ensiklopediya. - Bakı : Ərgünəş, 2013. - 272 s.

**Tahirli A.** Azərbaycan mühacirət mətbuatı. I hissə. - Bakı : QAPP-POLİQRAF Korporasiyası, 2002. - 160 s.

**Tahirli A.** Azərbaycan mühacirət mətbuatı. II hissə. - Bakı : Ozan, 2003. - 276 s.

**Tahirli A.** Azərbaycan mühacirət mətbuatında publisistika : 1921-1991. - Bakı : Polygraphic production, 2005. - 528 s.

**Yaqublu N.** "Kaspi" qəzetinin yaranması və fəaliyyəti : "Kaspi" qəzetinin 130 illiyinə. - Bakı : Qanun, 2011. - 216 s.

*Dövri mətbuat*

**Abdullayev M.** Azərbaycan mətbuatı: söz, fikir azadlığından azad mediaya qədər // Azərbaycan. - 2017. - 20 iyul. - № 154. - S. 4.

**Abdullayev M.** Qlobal media və tolerantlıq // Xalq qəzeti. - 2015. - 1 iyul. - № 139. - S. 10.

**Aslanov A.** AzərTac : Şərqlə Qərb arasında media körpüsü // Azərbaycan. - 2015. - 18 fevral. - № 38. - S. 4.

**Aydınoğlu T.** Söz azadlığı və plüralizm demokratik cəmiyyətin zəruri təlabatıdır // Xalq qəzeti. - 2017. - 11 iyul. - № 146. - S. 7.

**Bayramova Z.** Söz və mətbuat azadlığı cəmiyyətdə demokratiyanın meyarı və ölçüsüdür : Bu gün Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günü demokratik proseslərin inkişaf etdiyi Azərbaycanda da qeyd olunur // Yeni Azərbaycan. - 2017. - 8 sentyabr. - № 161. - S. 9.

**Bədəlov Ə.** Azərbaycanda bütün başqa azadlıqlar da - söz azadlığı, vicdan azadlığı, sərbəst toplaşma azadlığı təmin olunur // Xalq qəzeti. - 2015. - 24 iyul. - № 156. - S. 6.

**Cəfərli R.** Azərbaycanda mətbuat və söz azadlığı təmin olunub : 3 May Ümumdünya Mətbuat Azadlığı Günüdür // Azərbaycan. - 2018. - 3 may. - № 99. - S. 1; 7.

**Cəfərli R.** Söz azadlığının təmin edilməsi Azərbaycanın demokratik inkişafının əsas göstəricilərindən biridir : 19 il əvvəl ölkəmizdə mətbuat üzərində senzura tamam aradan qaldırıldı // Azərbaycan. - 2017. - 6 avqust. - № 169. - S. 1, 5.

**Əhmədova F.** İstiqlala qovuşduran mətbuatımız // Azərbaycan. - 2015. - 17 iyul. - № 153. - S. 5.

**Ələddinqızı N.** Azərbaycan mətbuatı dünya mətbuatının bir parçasıdır : Bu gün Ümumdünya Mətbuat və Söz Azadlığı Günü demokratik proseslərin inkişaf etdiyi Azərbaycanda da qeyd olunur // Səs. - 2017. - 3 may. - № 77. - S. 12.

**Ələddinqızı N.** Dövlətimiz söz, fikir və mətbuat azadlığının tam təminatçıdır // Səs. - 2015. - 13 avqust. - № 147. - S. 3.

**Əliyev İ.** Azərbaycanda söz və mətbuat azadlığı demokratik prinsiplərə əsaslanır // Səs. - 2017. - 20 may. - № 89. - S. 11.

**Feyziyev C.** Milli mətbuatımız milli mübarizə tariximizdir // Səs. - 2015. - 23 iyul. - № 132. - S. 10. ; Xalq qəzeti. - 2015. - 25 iyul. - № 157. - S. 5.

**Hacalıyev E.** Milli maraqlar KİV-in fəaliyyətinin əsas meyarı olmalıdır : 3 may Beynəlxalq Söz və Mətbuat Azadlığı Günüdür // Azərbaycan : qəzet. - 2016. - 3 may. - № 94. - S. 11.

**İsmayılqızı X.** Milli mətbuatın tarixində yeni mərhələ : Heydər Əliyev - 92 // İki sahil. - 2015. - 9 may. - № 83. - S. 13.

**KİV nümayəndələri: Azərbaycan** Prezidenti jurnalistlərin dostu, mətbuat və söz azadlığının qarantıdır // Yeni Azərbaycan. - 2017. - 4 avqust. - № 138. - S. 4.

**Qələndərli N.** Azərbaycan mətbuatı hakimiyyətin dördüncü qolu funksiyasını uğurla yerinə yetirir // Yeni Azərbaycan. - 2015. - 28 iyul. - № 133. - S. 2.

**Məmmədov C.** Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi // Səs. - 2016. - 20 fevral. - № 33. - S. 13.

**Mirzəbəyli İ.** Azərbaycanda söz, fikir və məlumat azadlığı yüksək səviyyədə təmin edilir : 3 May Ümumdünya Mətbuat Azadlığı Günüdür // Xalq qəzeti. - 2017. - 3 may. - № 93. - S. 10.

**Nəcəfzadə R.** Fikir, söz və məlumat azadlığının plüralizmin inkişaf etdirilməsi // Səs. - 2018. - 27 fevral. - **№ 38**. - S. 13.

**Nərimanoğlu M.** Azərbaycanda dövlət mətbuatın inkişafına daim dəstək göstərir : 3 may Beynəlxalq Söz və Mətbuat Azadlığı Günüdür // Azərbaycan. - 2017. - 3 may. - № 93. - S. 11.

**"Ölkədə azad mətbuatın** inkişafı üçün hər cür şərait yaradılıb" : "Azərbaycan milli mətbuatı - 140 : inkişaf yolu və müasir dövrün çağırışları" mövzusunda növbəti regional konfrans Qubada keçirilib // Palitra. - 2015. - 17 iyul. - № 128. - S. 3.

**Ömərov V.** Azərbaycanın dünya hüquq sisteminə inteqrasiyası və insan hüquqları, söz azadlıqları // Səs. - 2016. - 25 fevral. - **№ 36**. - S. 15.

**Rəhimzadə V.** Mətbuat, söz və fikir azadlığını təmin edən islahatların müəllifi : Heydər Əliyev - 92 // Xalq qəzeti. - 2015. - 8 may. - № 98. - S. 6.

**Rəsulov R.** Azərbaycanda söz, fikir və məlumat azadlığı yüksək səviyyədə təmin olunmaqdadır // Səs. - 2017. - 5 avqust. - № 139. - S. 10.

**Rüstəmli A.** İstiqlalımızın ilk tribunası : Azərbaycan Milli Mətbuatı - 140 // Azərbaycan. - 2015. - 7 iyul. - № 144. - S. 2.

**Rüstəmov A.** Jurnalistikanın funksiyaları // Füyuzat. - 2015. - № 3. - S. 8-12.

**Rüstəmov A.** Mətbuat və söz azadlığı demokratik cəmiyyətin göstəricisi kimi // Füyuzat. - 2015. - № 2. - S. 16-20.

**Rüstəmov İ.** Hamımızın azadlığı... söz azadlığı // Xalq qəzeti. - 2016. - 10 iyul. - № 146. - S. 7.

**Sadıqov B.** Bir görüşün təəssüratları : Mətbuatın üzərinə düşən vəzifələrin miqyası daha da artır və genişlənir // Azərbaycan. - 2015. - 5 avqust. - № 166. - S. 1-2.

# Mətbuat – Həyatın güzgüsü, həqiqətin carçısı

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 31
Çapa imzalanmışdır:12.04.2018
Tirajı:100
Pulsuz